İQTİSADİYYAT, MENECMENT VƏ HÜQUQ

UOT 343.132

# İSTİNTAQ HƏRƏKƏTLƏRİNDƏ MÜTƏXƏSSİSİN İŞTİRAKI: BƏZİ TAKTİKİ, TƏŞKİLATİ VƏ PROSESSUAL ASPEKTLƏR

**Ş.M. Kərimov, A.S. Mikayılov***

Milli Aiasiya Akademiyası
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi*

*Məqalədə cinayət mühakimə icraatının məhkəməyədək olan mərhələlərində mütəxəssisin iştirakının bir sıra təşkilati-prosessual aspektləri nəzərdən keçirilmişdir.*

*Hadisə yerinə baxış, şəxsi müayinə, axtarış, istintaq eksperimenti və digər istintaq hərəkətlərində mütəxəssisin iştirakının bəzi taktiki, təşkilati və prosessual xüsusiyyətləri təhlil edilmişdir. Habelə cinayət mühakimə icraatı məqsəd və vəzifələrinə uyğun olaraq mütəxəssislərin xüsusi biliklərindən və bacarıqlarından istifadə məsələlərinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri müəyən olunmuşdur.*

***Açar sözlər:*** *cinayət-prosessual məcəllə, istintaq hərəkətləri, mütəxəssis, hadisə yerinə baxış, şəxsi müayinə, axtarış, istintaq eksperimenti.*

İstintaq hərəkətlərinin seçimi, onların aparılması ardıcıllığı və taktikası, isti izlərlə cinayətlərin istintaqı zamanı istifadə edilən metodlar və vasitələr, onlarda iştirak edən subyektlərin dairəsi, cinayətlərin istintaqı prosesini həyata keçirildiyi şəraitdən asılıdır. Subyektlərin cinayətlərin açılması və istintaqına yönələn hərəkətlərin məqsədyönlü xarakter daşıması və effektiv olması üçün baş verən hadisələrin və onların nəticələrini obyektiv və əhatəli qiymətləndirmək zəruridir [9, s.22].

Qeyd olunanları nəzərə alaraq, mütəxəssisin bir sıra istintaq hərəkətlərinin iştirakının bəzi təşkilati, taktiki və prosessual aspektlərini nəzərdən keçirək.

AR CPM-nin 236.5-ci maddəsində göstərilir ki, «baxış zamanı müstəntiq müstəqil və ya mütəxəssin köməyi ilə izləri, əşyaları, sənədləri, habelə gələcəkdə iş üzrə sübut əhəmiyyəti kəsb edə biləcək digər əşyaları götürür».

İ.U.Məmmədov qeyd edir ki, «hadisə yerinin xarakterindən və onun məzmunundan asılı olaraq, müstəntiq baxışın aparılmasında xüsusi bilik və bacarığa malik olan mütəxəssisin köməyindən istifadə edə bilər. Mütəxəssis qismində kriminalist, bioloq, həkim, mühəndis, kimyaçı və başqa ixtisas və ya peşə mənsubiyyəti olan şəxslər dəvət edilə bilər» [2, s.711].

Hadisə yerinə baxış – mütəxəssisin rolunun daha açıq şəkildə təzahür etdiyi istintaq hərəkətidir. Bir sıra kateqoriyalı işlər üzrə (məsələn, texnogen qəzalar, yanğınlar və s.) mütəxəssisin iştirakı olmadan hadisə yerinə baxışın effektiv aparılması sadəcə olaraq mümkün deyildir. Bir sıra müəlliflər ümumiyyətlə hadisə yerinə baxışda mütəxəssisin məcburi iştirakı kimi müddəaları özündə əks etdirən maddənin qanunvericiliklə təsbit edilməsini təklif edirlər. Fikrimizcə, hər bir cinayət işinin istintaqı zamanı mütəxəssisin hadisə yerində iştiraka cəlb edilməsinin məcburiliyi kimi müddəanı cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulması o qədər də məntiqi deyildir və bu məsələ konkretləşdirilməlidir.

C.H. Mövsümov bununla bağlı yazır: «Bir çox hallarda baxış zamanı müxtəlif elm, peşə və sənət sahələrinə aid olan məsələlərin aydınlaşdırılmasına ehtiyac yaranır. Belə hallarda baxışın obyektiv və tam aparılması məqsədi ilə xüsusi biliyə malik olan şəxslərin dəvət edilməsi zəruridir. Mütəxəssislər hadisə yerinin planının çəkilməsində, aşkar edilmiş izlərin və digər maddi sübutların düzgün qablaşdırılmasında az rol oynamırlar. Müstəntiq hər bir konkret halda hadisənin xarakterindən asılı olaraq, hansı mütəxəssislərin baxışa dəvət edilməsini dərhal müəyyənləşdirməli və onların iştirakını təmin etməlidir. Mütəxəssislər hadisə yerinin müayinəsində iştirak etməklə müstəntiqin köməkçisi kimi fəaliyyət göstərirlər. Onlar xüsusi biliklərinə əsasən hadisə yerinin vəziyyətinin daha dəqiq müayinə olunmasında və protokolun tam və düzgün yazılmasında və s. bu kimi başqa məsələlrin həllində müstəntiqə yaxından kömək edirlər» [4, s.53] .

Baxış zamanı mütəxəssisin təşkilati-taktiki köməyi müstəntiqə sübutların üzə çıxarılmasının düzgün və təhlükəsiz metodlarını və üsullarının seçimində məsləhətlər vermək; işə aid olan predmetlər, xüsusiyyətlər, əhəmiyyətli əlamətlər haqqında məlumatları protokolda qeyd etməkdə kömək etmək və s. ifadə olunur. Mütəxəssisin elmi-texniki köməyi sübutların aşkarı, təsbiti və götürülməsi zamanı elmi-texniki vasitələrin düzgün tətbiq edilməsində, müstəntiqin tapşırığı ilə ölçmələrin, fotoçəkilişin, videoyazının aparılmasında, baxışın ayrı-ayrı vəziyyətlərini əks etdirən planların, sxemlərin tərtibində kömək etməkdən ibarətdir [8, s.18] .

Mütəxəssisin hadisə yerinə baxışa cəlb edilməsinin ümumi və xüsusi məqsədlərini fərqləndirmək olar. Ümumi məqsədlərə aid etmək olar: texniki axtarış vasitələrinin tətbiqi; texniki vasitələrin (foto, video çəkiliş) köməyi ilə baxışın gedişi və nəticələrinin qeydə alınması; aşkar edilmiş predmetlərin xassə və xüsusiyyətlərinin müstəntiqə izahı və s. Mütəxəssisin cəlb edilməsinin xüsusi məqsədləri qismində göstərilə bilər: müstəntiqin tapşırığı ilə aşkar edilmiş obyektlərin ilkin tədqiqatı; aşkar edilmiş predmetlərlə düzgün davranış üzrə müstəntiqə məsləhətlərin verilməsi; götürülmüş predmetlərin protokolda düzgün təsvirində müstəntiqə kömək göstərmə və s.[7, s.216-217].

Professor C.H. Mövsümov hadisə yerinə baxış zamanı mütəxəssis qismində kriminalistlərin cəlb olunmasının zəruriliyini də xüsusi olaraq vurğulayırdı. Belə ki, müəllif bununla bağlı yazırdı: «Baxışın tam və ətraflı aparılması məqsədi ilə çox halda mütəxəssis-kriminalistlərin də iştirakı tələb edilir. Məsələn, hadisə yerində odlu silahın tətbiq edilməsini göstərən izlər qaldıqda, yaxud sındırma aləti izləri və sair izlər olduqda mütəxəssis – kriminalistlərin iştirakı xüsusi ilə vacibdir» [4, s.53-54].

Məlum olduğu kimi, baxışın bir sıra növləri vardır ki, onlardan biri də insan meyitinə baxışdır. Bu istintaq hərəkətində bir çox hallarda mütəxəssisin də iştirakı zəruriliyi yaranır. İ.U.Məmmədov yazır: «İnsan meyitinin baxışının keçirilməsində məhkəmə təbabəti sahəsində mütəxəssis, o olmadıqda, pataloq-anatom, cərrah və ya digər həkim iştirak etməlidir. Zərurət oldunda həkimdən başqa, digər mütəxəssislər də dəvət edilə bilər. Məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı məhkəmə-tibb ekspertizasını əvəz edə bilməz və mütəxəssisin meyitin baxışında iştirakı onun gələcəkdə həmin iş üzrə ekspert qismində iştirakını istisna etmir. Baxış meyitin bədəninin, paltarının, ayaqqabılarının və onun üzərində aşkar edilmiş digər əşyaların baxışının keçirilməsini nəzərdə tutur. İnsan meyitinin baxışı zamanı meyitin olduğu yer, onun cinsi, təxmini yaşı, pozası, üzərində izlərin, ləkələrin olub-olmaması paltarının və ayaqqabılarının xarici görünüşü, zədələrin olub-olmaması və s. müəyyən edilməlidir» [2, s.712] .

CPM-nin 238.4-cü maddəsinə (şəxsi müayinə) uyğun olaraq, «zəruri hallarda şəxsi müayinə həkimin və ya məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı ilə və ya qanunla müəyyən edilmiş hallarda həkim-narkoloq, həkim olmadıqda isə feldşer-narkoloq tərəfindən aparılır».

İ.U.Məmmədov bununla bağlı daha sonra qeyd edir: «Həkim-narkoloq, həkim olmadıqda isə feldşer-narkoloq tərəfindən şəxsi müayinənin aparılmasını zəruri edən hallar «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanununda nəzərdə tutulmuşdur. Qanunun 25-ci maddəsinə əsasən insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədi ilə tibbi müayinə həyata keçirilə bilər. Şəxsin öz bədəni daxilində narkotik vasitələr və psixotrop maddələr daşıması haqqında əsaslı sübutlar olduqda, həmin şəxss tibbi müayinədən keçirilə bilər. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 avqust 2000-ci il tarixli 135 saylı qərarı ilə təsdiq edilmiş «Narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehlakı və insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədi ilə tibbi müayinənin keçirilməsi Qaydası»na görə, tibbi müayinə vasitəsi ilə müayinə olunan şəxsin orqanizmində tədqiqat nəticəsində aşkarlanan narpkotik vasitələrin və psixotrop maddələrin növü, ehtiyac olduqda miqdarı və təxmini istehlak etmə vaxtı təyin olunur» [2, s.716-717] .

Cinayət-Prosessual Məcəllənin «axtarış və ya götürmə zamanı iştirak edən şəxslər» adlanan 244-cü maddəsinin 3-cü hissəsinə uyğun olaraq «zəruri hallarda axtarış və ya götürmənin aparılmasında tərcüməçi və mütəxəssis iştirak edə bilər».

R.İ. Qasımov bununla bağlı qeyd edir ki, «mütəxəssis o halda axtarış və götürmənin aparılmasına cəlb edilir ki, axtarış və ya götürmənin gedişində xüsusi axtarış cihazlarının və vasitələrinin tətbiqi, texniki təhlükəsizlik məsələlərinə dair məsləhət və tövsiyələrin verilməsi, habelə axtarılan əşya və sənədlərin saxlanıla biləcəyi yerlərin yoxlanılması və aşkar edilmiş əşyalarla davranış qaydalararını bilən şəxs tərəfindən həmin əşyaların götürülmsi nəzərdə tutulmuş olsun. Zərurət olduqda, iyinə görə axtarılan əşyaların və ya şəxslərin aşkar edilməsi üçün xidməti itlə birlikdə kinoluq da dəvət edilməsi məqsədəuyğundur» [2, s.734] .

Mütəxəssislərin biliklərindən və bacarıqlarından taktiki cəhətdən savadlı istifadə edilməsi praktiki olaraq həmişə axtarışın nəticəviliyinin yüksəlməsinə və onun aparılmasına sərf olunan vaxtın azalmasına gətirir [5].

Cinayətlərin tez bir zamanda açılmasına kömək edən təxirəsalınmaz istintaq hərəkətlərindən biri olan axtarışın keçirilməsinə cəlb oluna bilən mütəxəssislər dairəsi müxtəlifdir (onların sırasında kriminalistlər, əmtəəşünaslar, mühəndislər, zərgərlər, dalğıclar və s. ola bilər). Bu məsələ konrktet hallarla və bu məqamda təşəkkül tapmış istintaq şəraitindən asılı olaraq müəyyən edilir [9, s.23].

Xüsusi ədəbiyyatda axtarışın keçirilməsinə mütəxəssisin cəlb edilməsinin müəyyən məqsəd və vəzifələri fərqləndirilir:

- gizlədilmiş predmetlərin və gizli saxlanc yerlərinin üzə çıxarılması üçün elmi-texniki vasitələrin tətbiqi;
- bu və ya digər predmetlərin və obyektlərin əsl mahiyyətinin müəyyən edilməsi (məsələn, farmakoloq, kimyaçı, bioloq dərman, kimyəvi və bitki mənşəli narkotik vasitələrin tapılmasında kömək edə bilər; zərgərin köməyi ilə qiymətli daşların əyarı müəyyən edilir və s.);
- qiymətli əşyaların və digər axtarılan predmetlərin gizlədilməsinin mümkün üsullarının müəyyən edilməsi [5, s.63].

Hesab edirik ki, mütəxəssislər qeyd olunanlarla yanaşı, həm də aşağıdakı məqsədlərlə də axtarışa cəlb edilə bilərlər:

- yerin relyefinin öyrənilməsi, axtarışın keçirildiyi sahənin sərhədlərinin müəyyən edilməsi; tikilinin xarakterinin, zirzəmi və damın xüsusiyyətlərinin öyrənilməsi, gizli saxlanc yerləri ola bilən gizli boşluqların aşkarı (kriminalistlər, mühəndislər və s.);
- gizlədilmiş obyektlərin aşkarı üzrə texniki imkanların nümayiş etdirilməsi (münaqişəli vəziyyətlərdə) və bununla da hətta kömək olmadan da axtarılan obyektin tapılacağı barədə təsəvvürün yaradılması;
- xüsusi biliklər və vərdişlər tələb edən tapşırıqların yerinə yetirilməsi (elektrik montyoru, dalğıc və s.);
- texniki təhlükəsizlik qaydalarına əməl olunması məsələləri üzrə məsləhət və tövsiyələrin verilməsi (zəhərli və partlayıcı maddələrlə, elektrik cihazları, silahla davranış zamanı və s.);
- aşkar edilmiş kriminalistik əhəmiyyət kəsb edən obyektlərin ilkin tədqiqi;
- predmetlərin və onların üzərində izlərin aşkarında, tapılmış predmetlərin götürülməsində, qablaşdırılmasında, daşınmasında, qeydə alınmasında köməklik göstərmə və axtarış nəticələrinin müzakirə edilməsi;
- müqayisəli tədqiqat üçün sərbəst nümunələrin axtarışı (xətt nümunələri və s.), belə obyektlər istintaqı aparılan hadisə ilə birbaşa bağlı olmasalar da, onlar müqayisəli materiallar olmadığı şəraitlərdə eyniləşdirmə tədqiqatını aparmağa imkan verirlər.

Axtarış zamanı digər mühüm vəzifələr də həll edilməlidir: tapılmış obyektlərin zərərçəkənə və ya şübhəli şəxsə məxsusluğunu sübut edən informasiyanın toplanması; sonradan ekspertiza icraatı zamanı ekspert tədqiqatı obyektləri qismində çıxış edə bilən obyektlərin aşkarı, qeydə alınması və götürülməsi; hadisə yerində iz qoyan obyektlərin aşkarı və ilkin tədqiqi və s. Məsələn, dərman preparatları arasında narkotik vasitələrin, qan izlərinin, bioloci mənşəli digər izlərin aşkarı üçün mütəxəssis tərəfindən bilavasitə axtarış yerində ekspress-metodlardan istifadə etməklə ilkin tədqiqatlar aparıla bilər (o şərtlə ki, əgər belə ilkin tədqiqatlar tədqiq edilən obyektlərin itirilməsinə, onun xarici görünüşünün, xassə və keyfiyyətlərinin dəyişməsinə gətirməyəcək, sonradan ekspert tədqiqatının aparılması imkanınını istisna etməyəcəkdir) [9, s.23-25]. CPM-nin 262.3-cü maddəsinə

(istintaq eksperimenti) görə, müstəntiqin dəvəti ilə istintaq eksperimentinin aparılmasında həmçinin şahid, mütəxəssis, müəllim, həkim və digər şəxslər iştirak edirlər [1, səh.290] .

C.H. Mövsümov bununla bağlı yazırdı: «Dəvət olunan mütəxəssislər yoxlanan hadisənin süni olaraq yenidən bərpa edilməsində, eksperimentdə iştirak edən şəxslərin düzgün yerləşdirilməsində, habelə aparılan təcrübi hərəkətlərin yüksək səviyyədə, səhvsiz yerinə yetirilməsində və alınan nəticələrin protokola tam qeyd edilməsində müstəntiqə yaxından kömək edə bilərlər» [3, s.131] . K.Q. Sarıcalinskaya da qeyd edir ki, «istintaq eksperimentinin həyata keçirilməsi zamanı mütəxəssis müstəntiqə təcrübənin hazırlanmasında, zəruri materialların seçilməsində, təcrübənin nəticələrinin rəsmiləşdirilməsində və s. kömək edir» [2, s.75] .

İstintaq eksperimentində mütəxəssisin iştirakının məqsədəuyğunluğu onunla şərtlənmişdir ki, bu istintaq hərəkəti təcrübələrin, sınaqların keçirilməsi ilə bağlıdır. Mütəxəssis, yoxlanılan hərəkətin həyata keçirildiyi vəziyyətə maksimal yaxın olan şəraitin yaradılmasında, nəzərə alınmasında səhvələrə, düzgün olmayan nəticələrə gətirə bilən bütün halların hesaba alınmasında əhəmiyyətli gömək göstərə bilər.

Müqayisəli tədqiqat üçün nümunələrin alınması kimi istintaq hərəkətində də (CPM-in 275-ci maddəsi) mütəxəssisin iştirakı məqsədəuyğun hesab edilə bilər. Belə ki, bu istintaq hərəkətində iştirak edərək mütəxəssis müstəntiqə hansı və nə qədər sayda nümunələrin zəruri olması ilə bağlı məsləhətlər verə bilər, nümunələrin alınması qaydasını hazırlaya, istintaq hərəkəti zamanı onda düzəlişlər edə, zəruri hallarda isə müstəntiqin tapşırığı ilə özü nümunələrin götürülməsini həyata keçirə bilər [8, s.20-21].

Mütəxəssis, istintaqı aparan şəxsi əvəz etmədən, onun tapşırığını yerinə yetirir və istintaq hərəkətinin texniki tərəfini təmin edir, yəni öz xüsusi biliklərindən istifadə edərək lazımi müqayisəli tədqiqat üçün nümunələrin alınması və onların təsbiti üçün zəruri olan şəraitlərin yaradılmasında iştirak edir.

İş üzrə istintaqı aparan və ekspertiza təyin etməyi planlaşdıran şəxs (müstəntiq) ekspert qarşısında sualların qoyulması üçün mütəxəssisi cəlb edə bilər.

Məhkəmə-istintaq təcrübəsinin təhlili göstərir ki, mütəxəssis, ekspertizanın təyin edilməsi zamanı istintaqı aparan şəxsə aşağıdakı xarakterli köməyi göstərə bilər:

- müəyyən növ ekspertizanın təyini üçün işdə olan materialların kifayət etməsi, ekspertizanın aparılması üçün zəruri olan müqayisəli tədqiqat üçün nümunələr, onların haradan və necə alınması, işin ayrı-ayrı halları barədə öz mülahizələrini söyləyə bilər;
- müasir imkanlara əsaslanaraq konkret ekspertizanın təyininin məqsəduyğunluğu haqqında öz fikirlərini bildirə, istintaqı maraqlandıran sualların ekspertizanı təyin etmədən həllinin mümkün olmadığını göstərən dəlilləri gətirə bilər;
- həll edilməsi məqsədəuyğun olan sualları formulə etməkdə kömək göstərə, onların qoyuluşunun məntiqi ardıcıllığını göstərə, ekspert tədqiqatına göndəriləcək maddi sübutların necə qablaşdırılması barədə məsləhət verə bilər [6, s.22].

Qeyd olunanlarla yanaşı, digər istintaq hərəkətlərinin təşkili və keçirilməsində də mütəxəssislər iştirak edə bilərlər. Məsələn, mütəxəssis-psixoloqun dindirmənin aparılmasında köməyindən istifadə edilməsi də perspektivli hesab edilə bilər. Dindirmə zamanı mütəxəssis-psixoloqun müstəntiqə kömək göstərmək iqtidarında olduğu məsələlər kifayət qədər genişdir. Məsələn, dindirmənin aparılması taktikasının müəyyən olunması və ya onun çevik şəkildə korrektə edilməsi; dindirmədə şəxsin davranışı nəzərə alınmaqla alınmış ifadələrin mötəbərliyinin qiymətləndirilməsinə müstəntiqə kömək göstərilməsi və s. Bununla bağlı xüsusi texniki vasitələrdən istifadə də mümkündür. Öz fikrini bildirmək, məsləhət və tövsiyələr vermək üçün mütəxəssis digər istintaq hərəkətlərində iştirak üçün də cəlb edilə bilər. Məsələn, xüsusi biliklər tələb edən kifayət qədər mürəkkəb nəticələr alındığı hallarda istintaq eksperimenti mütəxəssisin peşəkar şərhi (izahı) ilə müşayiət oluna bilər ki, bu şərh də müəyyən rəy (sənəd) formasında verilə bilər. Fikrimizcə, bununla bağlı müddəaları cinayət-prosessual qanunvericiliyə daxil edilməsi də məntiqi olardı [15, s.22] .

Beləliklə, əvvəlki qanunvericiliklə müqayisədə, qüvvədə olan cinayət-prosessual qanunvericilikdə mütəxəssisin prosessual statusu ilə bağlı qeyd olunan və digər dəyişiklər, sözsüz

ki, əhəmiyyətlidir, onlar məhkəmə-istintaq təcrübəsinin tələbatlarından irəli gələrək cinayət mühakimə icraatında xüsusi biliklərdən istifadə hüdudlarını əhəmiyyətli dərəcədə genişləndirmişlər. Bunu qeyd edərək, İ.B. Eyyubov eyni zamanda düzgün olaraq göstərir ki, «cinayət prosesində iştirak edən mütəxəssisin prosessual statusunun hüquqi tənzimlənməsində kifayət qədər boşluqlar mövcuddur» [2, s.4-5].

Hesab edirik ki, cinayət mühakimə icraatı məqsəd və vəzifələrinə uyğun olaraq mütəxəssislərin bilik və bacarıqlarından istifadə məsələlərinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi aşağıdakı dörd əsas istiqamətlər üzrə həyata keçirilməlidir:

1. cinayət mühakimə icraatında iştirakın əlavə formalarının qanunvericilik səviyyəsində təsbit edilməklə mütəxəssisin prosessual statusunun hquqi tənzimlənməsinin təkmilləşdirilməsi;
2. cinayət-prosessual məcəlləyə uyğun dəyişikliklərin edilməsi yolu ilə mütəxəssis tərəfindən tərtib edilən sənədlərə (arayışlar, obyektlərin ilkin tədqiqi aktları, digər sənədlər) prosessual statusun verilməsi;
3. mütəxəssisin iştirakı ilə istintaq hərəkətlərinin idraatı zamanı prosesin digər iştirakçılarının qanunla qorunan maraqlarının və hüquqlarının müdafiəsinin təmini;
4. mütəxəssisin iştirakı ilə istintaq hərəkətlərinin icraatının prosessual qaydasının təkmilləşdirilməsi.

Mütəxəssisin iştirakı ilə istintaq hərəkətinin icraatı qaydasının təkmilləşdirilməsi məqsədilə xüsusi mütəxəssis anketinin işlənib hazırlanması və tətbiqi məqsədəmüvafiq hesab edilməlidir. Bu anket mütəxəssis tərəfindən doldurulmalı və orada əksini tapmış məlumatların mötəbərliyi mütəxəssisin imzası ilə təsdiq olunmalıdır.

## *НЕКОТОРЫЕ ТАКТИЧЕСКИЕ, ОРГАНИЗАЦИОННЫЕ И ПРОЦЕССУАЛЬНЫЕ УЧАСТИЯ СПЕЦИАЛИСТА ПРИ ОСУЩЕСТВЛЕНИИ СЛЕДСТВЕННЫХ ДЕЙСТВИЙ*

***Ш. М. Керимов, А.С. Микайлов***

*В данной статье рассмотрен ряд организационно-процессуальных аспектов участия специалиста на стадии досудебного производства и в стадии судебного рассмотрения дела. Проведен анализ некоторых тактических, организационных и процессуальных особенностей участия специалиста в осмотре места происшествия, личном обследовании обыске, следственном эксперименте и прочих следственных действиях. Определены основные направления совершенствования правового регулирования вопросов применения специальных знаний и умений специалиста в соответствии с целями и задачами уголовного судопроизводства.*

***Ключевые слова:*** *уголовно-процессуальный кодекс, следственные действия, специалист, осмотр места происшествия, личное обследование, обыск, следственный эксперимент.*

## *SOME PROCEDURAL, ORGANIZATIONAL AND TACTICAL ASPECTS OF THE EXPERT`S PRESENCE ATTRACTED TO THE CRIMINAL PROCEEDINGS*

***Sh.M. Kerimov, A.S. Mikayilov***

*The article deals winh a number of organizational and procedural aspects of the specialist`s participation in the pre-trial stage of criminal proceedings. Some tactical, organizational and procedural features of specialist's participation in the scene of crime, personal inspection, research, investigational experiment and other investigative actions were analyzed. The main directions of improving the legal regulation of the use of special knowledge and the expert`s skills in accordance with the goals and objectives of the criminal proceedings are identified.*

***Key words:*** *criminal-procedural codex, investigational acts, expert, principles, review to the scene of crime, personal inspection, research, investigational experiment.*

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi “Hüquq Yayın Evi” Bakı, 2017, s.290.

2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / C.H. Mövsümovun redaktəsi ilə. Bakı, 2016.
3. İstintaq taktikası/K.Q. Sarıcalinskaya və başqaları. Bakı, 1991.
4. Mövsümov C.H. İbtidai istintaq. Bakı, 1973.
5. Ищенко П.П. Специалист в следственных действиях: уголовно-процессаальные и криминалистические аспекты. М., 1990, с.12.
6. Кубанов В.В. Участие специалиста при производстве осмотра места происшествия в современных условиях//Евроазийский юридический журнал. 2015. №5(84), с.216-217.
7. Курзинер Е.Э. Участие специалиста в следственных действиях//Вестник ЮУрГУ. Серия «Право», вып.13. 2008, №2.
8. Сысенко А.Р. Участие специалиста в обыске, проводимом при расследовании преступлений по горячим следам//Психопедагогика в правоохранительных органах. 2011. №3(46).
9. Тхакумачев Б.Ю. Тактико-организационные особенности участия специалиста при производстве следственных действий. Автореф. дис. к.ю.н., Нальчик, 2005.


**REFERENCES**


1. Criminal Procedure Code of the Republic of Azerbaijan "Law Publishing House" Baku, 2017. p.290.
2. Comments of the Criminal Procedure Code of the Republic of Azerbaijan / C.H. Edited by Movsumov. Baku, 2016.
3. Investigative Tactics / K. Sarycalinskaya and others. Baku, 1991.
4. Seasonov C.H. The preliminary investigation. Baku, 1973.
5. Ishchenko P.P. The Specialist in the Slavic Dynasties: The Critical and Criminalistic Aspects. M. 1990, p.12.
6. Kubanov VV Specialists at the prospect of osmotra placements in the modern methods // the Eurasian legal journal. 2015. No. 5 (84), pp.216-217.
7. Kurziner EE Flight Specialists in Opened // // The Bulletin. Серия «Право», вып.13, 2008, №. 2.
8. Sysenko A.R. Training of specialists in the region, provost during the registration of the pastor. 2011. No. 3 (46).
9. Thakumachev B.Yu. Tactical-Organizational Precincts Specialists at the Proprietorship. Author. disc PhD, Nalchik, 2005.


**Müəlliflər haqqında məlumat**


**Soyadı, adı, atasının adı:** Kərimov Şöhlət Müzəffər oğlu
**İş yeri:** Milli Aviasiya Akademiyası
**Vəzifəsi:** Hüquqşünaslıq kafedrasının dosenti, h.f.d.
**Maraq sahəsi:** Cinayət prosesi
**E-mail:** samir_3082@mail.ru
**Əlaqə telefonu:** +994 50 316 81 49

**Soyadı, adı, atasının adı:** Mikayılov Anar Səhrab oğlu
**İş yeri:** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi
**Vəzifəsi:** DİN-nin Polis Akademiyasının baş müəllimi
**Maraq sahəsi:** Cinayət prosesi
**E-mail:** samir_3082@mail.ru
**Əlaqə telefonu:** +994 55 733 22 06


***Rəyçi**: h.f.d., dos. S.Y. Qasımov*